

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 42 (20.943)

5 mart 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış olmuşdur.

Gənclər və idman naziri Azad Rəhimov Prezident İlham Əliyevə görüləcək işlərlə bağlı məlumat verdi.

Dövlətimizin başçısı komplekslə yanaşı, ətraf ərazilərdə abadlıq işlərinin aparılması ilə bağlı tapşırıqlar verdi.

Sonra Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin arenasında, müxtəlif məşq zallarında və binanın fasadında aparılacaq təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış oldu. Bildirildi ki, kompleksin bütün sahələrində, o cümlədən əsas və məşq korpuslarında, müxtəlif idman zallarında əsaslı təmir və bərpa işlərinə başlanılması üçün hazırlıq işləri yeni layihəyə uyğun olaraq artıq başa çatdırılmışdır. Kompleksdə yeni işıqlandırma, yanğından mühafizə və təhlükəsizlik, eyni zamanda videomüşahidə və xəbərdarlıq sistemlərinin və müasir liftlərin quraşdırılması üçün işlər davam etdirilir.

Dövlətimizin başçısı təmir və yenidənqurma işlərinin aparılacağı ayrı-ayrı sahələri gəzdi, işlərin yüksək keyfiyyətlə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.

Sonra Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin yanındakı parka gəldi.



Dövlətimizin başçısı parkın yenidən qurulması, burada abadlıq və quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı da göstərişlər verdi.

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



*Martın 4-də "Muxtariyyət ili" ilə əlaqədar Heydər Əliyev Muzeyində Babək rayon Nehrəm kənd 1 və 3 nömrəli tam orta məktəbləri şagirdlərinin iştirakı ilə açıq dərs keçilmişdir.*

Açıq dərsdə Nehrəm kənd 1 nömrəli tam orta məktəbin tarix müəllimi Şəlalə Vəlisoy və 3 nömrəli tam orta məktəbin tarix müəllimi Nazilə Həsənova "Muxtariyyət statusunun qorunmasında ulu öndər Heydər Əliyevin rolu" mövzusunda danışmışlar. Bildirmişlər ki, ötən əsrin sonlarında SSRİ-nin süqutundan sonra Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan özünün mürəkkəb dövrünü yaşamış, sovet rəhbərliyinin ölkəmizin maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları muxtar respublikamızın ictimai-siyasi həyatına ciddi təsir göstərmişdir. Məhz həmin dövrdə Azərbaycan xalqının müdrik oğlu, ümummilli lider Heydər Əliyevin Bakıya, sonra isə Naxçıvana gəlişi regionun təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamışdır. Ermənilərin Naxçıvana əsassız ərazi iddialarının və muxtar respublikaya silahlı hücumlarının qarşısının alınması yalnız dahi şəxsiyyətin qətiyyətli addımları sayəsində mümkün olmuşdur. Belə ki, ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində Naxçıvanın muxtariyyət statusunu təsdiq edən Qars müqaviləsi gündəmə gətirilmişdir. 1921-ci ildə imzalanmış bu müqavilənin hüquqi statusunun tanınması regionun təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır.

Qeyd edilmişdir ki, dahi şəxsiyyətin təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olunmuşdur. Hansı ki, bu tarixi qərarlar sonra Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında əsas amillərdən olmuşdur. Beləliklə, Naxçıvanın muxtariyyət statusunu özündə ehtiva edən Qars müqaviləsinin yenidən gündəmə gətirilməsi, milli dövlətçilik strukturlarının bərpası və həmin dövrdə qonşu İran və Türkiyə respublikaları ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında ikitərəfli əlaqələrin bütün sahələr üzrə inkişaf etdirilməsi muxtar respublikamızın sonrakı inkişaf mərhələlərində də öz müsbət nəticələrini ortaya qoymuşdur. 1991-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyəti muxtar respublikanı geniş tərəqqi yoluna çıxarmış, onu ölkəmizin öndə gedən regionlarından birinə çevirmişdir.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olmuşlar.

## Ali təhsil ocağında muxtar respublikanın 90 illik yubileyi münasibətilə konfrans keçirilib

*Konfransı Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov açıb.*



Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədovun məruzəsi dinlənilib.

Qeyd olunub ki, Naxçıvanın muxtariyyəti Azərbaycanın XX əsrdə əldə etdiyi böyük tarixi nailiyyətdir. Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil edib. Naxçıvanın muxtariyyət statusunun qorunması və möhkəmləndirilməsi ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində həmişə mühüm yer tutub. Onun siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində naxçıvanlılar bunu həmişə hiss ediblər.

Bildirilib ki, Naxçıvan diyarının tarixi taleyində Moskva və Qars beynəlxalq müqavilələrinin böyük rolu olub. Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət statusunun verilməsi diyarın tarixi taleyində – ərazisinin qorunub saxlanılması və təhlükəsizliyinin təmin edilməsində çox böyük rol oynayıb. Muxtariyyət statusunun muxtar respublikaya çevrilməsi prosesi də asan olmayıb. Naxçıvan Moskva müqaviləsindən sonra Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsa da, Zaqafqaziya Sovetlər Qurultayı (1922, dekabr) Naxçıvanın muxtar respublika kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bəyan edib. 1923-cü il iyunun 16-da Naxçıvanın hüquqi statusu azaldılaraq o, muxtar diyara çevrilib. 1923-cü il dekabrın 31-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edib. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi bu qərarı 1924-cü ilin yanvarında təsdiqləyib. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi, öz növbəsində, 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsini qanuniləşdirib.

YAP universitet şəhərciyi ərazi ilk təşkilatının Gənclər Birliyinin sədri Aytən İsmayılova birliyin muxtar respublikanın 90 illik yubileyi ilə bağlı həyata keçirdiyi tədbirlər haqda məlumat verib.

Sonra Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Kamal Camalovun və YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərlinin çıxışları olub.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına üzv qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutu Şərur Rayon Təhsil Şöbəsi ilə birlikdə Şərur şəhər 1 nömrəli tam orta məktəbdə "Məktəbdə psixoloji xidmətin aktual problemləri və müasir fənn kurikulumlarının tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirmişdir.*

## Elmi-praktik konfrans

Konfransı giriş sözü ilə açan Şərur Rayon Təhsil Şöbəsinin müdiri Yaqub Tağıyev bildirmişdir ki, psixoloq-müəllimlərimizin kurslara cəlb edilməsi, onların kurslarda öyrəndikləri biliklər və əldə etdikləri vasitələr məktəbdə psixoloji işin düzgün qurulmasına kömək etmişdir. Bu cür tədbirlərin keçirilməsi, qarşılıqlı fikir mübadilələri, yerlərdə keçirilən görüşlər məktəb işinin düzgün qurulmasına, dövlətimizin təhsillə bağlı qarşıya qoyulan tələblərinin həyata keçirilməsinə xidmət edir.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Məktəbdə psixoloji xidmətin aktual problemləri" mövzusunda məruzə ilə çıxış edərək bildirmişdir ki, ümumtəhsil məktəblərinin vəzifəsi və məqsədi təhsil alanların ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarının formalaşmasına, nitq mədəniyyətinin ünsiyyət bacarığına çevrilməsinə xidmət etməsi ilə yanaşı, həm də şagirdlərin idrak fəallığının və mənəvi-əxlaqi tərbiyəsinin, mənəvi tələbatlarının ödənilməsinə, cəmiyyətdə baş verən dəyişikliklərin, dünyaya açılmaq istəyinin təmin etməkdən, onları psixoloji baxımdan gələcəyin əsl vətəndaşı kimi hazırlamaqdan ibarətdir. Bu gün yetişməkdə olan nəslin tərbiyəsini düzgün təşkil etmək, sürətlə artan elmi-texniki yeniliklərin əsaslarını onlara mənimsətmək üçün uşaqların dərketmə imkanlarını, idrak proseslərinin inkişaf qanunauyğunluqlarını və bu prosesin necə aşılanması və tərbiyə edilməsini bilmək vacibdir.

Bu gün hər bir məktəb rəhbəri bilməlidir ki, psixoloq-müəllim öz fəaliyyətini ölkədə, eləcə də dünyada gedən proseslərin şagirdlər tərəfindən düzgün başa düşülməsinə, dərk edilməsinə istiqamətverici şəxs kimi qurmalıdır. Buna görə yeni təhsil islahatının həyata keçirilməsində psixoloq-müəllimlərin də üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Əsl vətəndaş tərbiyə etmək, cəmiyyətimizin gələcək qurucularını düzgün formalaşdırmaq üçün Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları olaraq məktəblərimizə, müəllimlərimizə, eləcə də psixoloq-müəllimlərimizə hərtərəfli kömək göstərməyə daim hazırıq.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Rəşad Əlizadə "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutunun birgə həyata keçirdiyi işlər və qarşıda duran vəzifələr", Şərur Rayon Təhsil Şöbəsinin Metodkabinetinin müdiri Vidadi Süleymanov "Yeni fənn kurikulumları və inteqrasiya" mövzularında çıxış edərək kurikulum və məktəbdə psixoloji xidmət işinin təşkili və tətbiqi ilə bağlı görülən işlərdən, qarşıda duran pedaqoji vəzifələrdən danışmışlar.

Sonra elmi-praktik konfrans öz işini iki istiqamət üzrə bölmə iclaslarında davam etdirmişdir. "Kurikulum" bölməsində Naxçıvan Müəllimlər İnstitutunun Kurikulum Mərkəzinin müdiri Rafiq Hüseynov "Kurikulumun tətbiqi və qarşıya çıxan problemlərin həlli yolları", "Məktəbdə psixoloji xidmət" bölməsində isə institutun metodisti Mənsim Tarverdiyev "Məktəbdə psixoloji işin təşkili" mövzularında çıxış edərək təhsildəki problemlərdən və onun həlli yollarından danışmışlar.

Sonda konfrans iştirakçılarına kurikulumun öyrənilməsi və tətbiqinə, o cümlədən məktəbdə psixoloji xidmətin təşkilinə dair yazılı və elektron materiallar verilmişdir.

## Universitetdə kompleks quruculuq işləri aparılır



Naxçıvan Özəl Universiteti quruculuq tədbirlərinin kompleks şəkildə aparıldığı ünvanlardan birinə çevrilib. Təhsilin müasir tələblər səviyyəsində qurulması, həmçinin müəllim və tələbələrin hərtərəfli imkanlardan yararlanması üçün ötən ilin mart ayından burada yeni tədris korpuslarının, rektorluq binasının və tələbə yataqxanasının tikintisinə başlanılıb. Tikinti işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır.

Rektorluq binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada əsas işlər yekunlaşdırılıb, dam örtüyü vurulub, pəncərələr salınıb, təchizat işləri başa çatdırılıb. Hazırda binanın fasad hissəsi travertin daşlarla üzlənir.

Təhsil müəssisəsinin əsas korpusu isə zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. Burada beton-qəlib işləri yekunlaşdırılıb, arakəsmələrin hörgüsü aparılır. Bina istifadəyə tam hazır olduqdan sonra zirzəmi hissədə müəllim və tələbələr üçün yeməkxana, laboratoriya otaqları və anbarlar yerləşəcək. Digər mərtəbələrdə isə mühazirə zalları, elektron lövhəli siniflər, kompüter və müəllimlər otaqları, fənn kabinələri və auditoriyalar fəaliyyət göstərəcək.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan xarici dillərin tədrisi üçün nəzərdə tutulmuş tədris korpusunda isə arakəsmələr hörülüb, dam örtüyü vurulub. Hazırda daxildə suvaq işləri aparılır. Bu binada tərcümə və imtahan mərkəzləri, mühazirə və konfrans zalları, kompüter və sinif otaqlarının yerləşməsi nəzərdə tutulub.

Universitet ərazisində tikintisi sürətlə davam etdirilən binalardan biri də tələbə yataqxanasıdır. Bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. Yataqxana binasında arakəsmələr hörülüb, dam örtüyü vurulub, qapı-pəncərələr salınıb. Hazırda daxildə suvaq işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

# Şahbuz: yenilənən hədəflərə doğru

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız bu il muxtariyyətinin 90-cı ildönümünü qeyd edir. Bu 90 illik tarixi yolda 20 ili əhatə edən inkişaf geridə qalmış 70 ili əməlli-başlı kölgədə saxlamağı bacarmış, Naxçıvanın müasir inkişaf və tərəqqisi intibaha çevrilmişdir. Və bu intibah özünün kulminasiya həddini yaşayır. Son illərin tərəqqisi insanda belə bir fikir yaradır ki, Naxçıvan diyarında inkişaf hədlərə görə yox, daim yenilənən hədəflərə doğru istiqamətlənir. Bunun əksini düşünmək bu yurdda qəbul olunmur.***



Şahbuz şəhərindən görünüş

Naxçıvanda hər bölgənin bir özünəməxsusluğu var. Bu özünəməxsusluq, əsasən, tarixdən, təbiətdən qaynaqlanan keyfiyyətdir. Məsələn, Naxçıvanın elə bölgələri var ki, burada 30-40 kilometrlik məsafədə iqlim dəyişkənliyinin şahidi olursan. Daha aydın ifadə etsək, bir bölgədə yetişən meyvə digər bölgədə bir-iki ay sonra hasil olur. Və yaxud bir bölgədə yerləşən tarixi abidələrin say çoxluğu digər bölgənin təbii gözəlliyinə uduzur və sair. Bax özünəməxsusluq odur ki, bütün bu zənginliklərin yerdəyişməsi sahəsi 5,5 min kvadratkilometr ərazidə baş verir. Elə bu yazıda haqqında bəhs edəcəyimiz Şahbuz rayonu da məhz özünəməxsusluğu ilə seçilir...

Ulu Tanrı bu bölgənin gözəlliyi üçün heç nəyi əsirgəməyib. Buna görə gəlin bu yurda bir az keçmişi xatırlamaqla həm də emosiyanın gözü ilə baxaq. Emosiya deyəndə bir bölgə (şəhər, rayon, kənd) haqqında insanların düşüncəsində yer alan təəssüratlar toplusunu nəzərdə tuturam. Hələ sovet dövründən Ordubad gözəl meyvələri, Şərur keyfiyyətli tərəvəzləri, Babək dadlı bostan məhsulları, Sədərək geniş üzümlükləri ilə tanınmışdır. Şahbuz rayonu isə, açığını desək, kasıb bir bölgə kimi bilinirdi. Rayonda dağlıq ərazilərin çox olması, əkin yerlərinin isə məhdudluğu sanki Şahbuzun inkişaf etməsinin "qarşısını alırdı". Burada bir incə məqam da ondan ibarət idi ki, sovet idarəçiliyində Azərbaycan, eləcə də Naxçıvan aqrar bölgə sayıldığından burada başqa sahələrin inkişaf etdirilməsi də "qeyri-mümkün" idi (Yadımıza salaq, ümummilli lider Heydər Əliyev Azərbaycanda sənaye müəssisələrinin açılması üçün hansı çətinliklərlə üzləşməmişdi). Əgər ərazi kənd təsərrüfatına, xüsusilə əkinçiliyə yaramırdısa, o "yararsız, gələcəkdə heç bir perspektivi olmayan" bir əraziyə çevrilirdi. Halbuki sovet başbilənləri bir zamanlar elə Şahbuz rayonunun həmin "yararsız sahələri"ndən bir hissəsini Ermənistana pay verməkdən çəkinməmişdilər. Xülasə, sözümün canı odur ki, Şahbuz rayonunun əkinəyararlı torpaqları az olduğundan ərazi perspektivli bölgə hesab edilmirdi və bu səbəbdən buraya diqqət ayırmaq "mənasız idi". Gəliri olmayan bir rayonu abadlaşdırmaq, kəndlərinə asfalt yol çəkdirmək və ya insanların rahat güzəranı üçün digər infrastruktur ehtiyatlarından istifadə etmək kimə lazım idi ki? Amma bu "uzaqgörənlik" çox çəkmədi. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbər seçilməsindən sonra bölgə özünəməxsus inkişafa çox yaxın yollarla varmış oldu. Çünki muxtar respublikanın bölgələrinin hərtərəfli inkişafı üçün bütün potensial imkanlar səfərbər edilmişdi. Bu səfərbərlikdə Şahbuz rayonunun əsl gözəllikləri özünə qaytarılmalı, onun haqqında yaradılmış təsəvvür (gəlirsiz rayon) məhv edilməli idi...

1993-cü ildən sonra isə bu proses daha da sürətləndirildi. Budur, "Muxtariyyət ili"ndə artıq Şahbuzun da fəxr edəcəyi, öyünəcəyi ünvanları, təbiiliyi özünə qaytarılmış əsrarəngiz gözəllikləri, qonaqlar qəbul edəcək məkanları, tərif söyləniləcək özünəməxsusluğu vardır...

Əvvəlcə özünəməxsusluqdan başlayaq. Tarixin bilinməyən dövrlərindən ulu Yaradan bura elə bir gözəllik bəxş edib ki, bu gözəlliyə başqa yerdə rast gəlməzsən. Kiçik Qafqaz silsiləsinin Şahbuz rayonuna düşən dağlıq ərazilərində müxtəlif xəstəliklərə çarə olan yüzlərlə dərman bitkiləri, bu dağların ətəyindən qaynayıb coşan dumduru bulaqları, yamyaşıl yaylaqları, ildən-ilə sayları artan müxtəlif canlı növləri sanki buranı təbiət cənnətinə döndərir. Ona görə də rayonda indiyədək həyata keçirilmiş tədbirlər sırasında təbii gözəlliklərin artırılmasına, ətraf mühitin qorunmasına böyük diqqət yetirilib. Muxtar respublikada ümumxalq işinə çevrilmiş yaşıllıqların artırılması tədbirləri Şahbuz rayonunda da geniş vüsət alıb. Məsələn, təkcə ötən il rayonda 12,5 hektar ərazidə yeni bağlar salınıb, Naxçıvan-Batabat magistral yolunun Heydər Əliyev Su Anbarı ərazisindən Biçənək kəndi ərazisinədək olan hissəsində yolun sağ və sol istiqamətlərində, həmçinin



Qızıl Qışlaq kəndindən görünüş

ayrı-ayrı kənd yolları boyunca 11 min 882 ədəd meyvə tingləri əkilib. Ümumilikdə isə 2013-cü ildə rayon ərazisində 18 min 358 ədəd meyvə, 975 ədəd həmişəyaşıl, 210 ədəd isə meşə ağacları əkilib.

Təbii ki, su harada varsa, həyatı da orada axtarmaq lazımdır. Bu gün Şahbuzda nə təsərrüfatçı, nə də ki sıravi sakin, necə deyərlər, su dalınca qaçmır. Məsələn, 2013-cü ildə rayonun Kükü, Qızıl Qışlaq, Külüs, Ayrınc, Sələsüz, Kolanı, Ağbulaq kəndlərinə içməli su xətləri çəkilib, Badamlı kəndində subartezian quyu istifadəyə verilib, əlavə olaraq 1 kəhriz təmir olunub. Kolanı kəndində isə suvarma su xəttinin, Şahbuzkənddə kəhrizin təmiri işi və digər ərazilərdə meliorativ tədbirlər bu il də davam etdirilir. Əlbəttə, su, yaşıllıq olan yerdə təbiət də gözəl görünür, qurub-yaratmaq həvəsi də yüksək olur. Lakin Şahbuz haqqında düşünərkən bu iki sahədə görülən işlərlə bağlı qısa məlumatlara əvvəldə yer verməyim bir də onunla bağlıdır ki, rayonun bu özünəməxsusluğu həm də insanların düşüncəsinə emosional olaraq təsir edir. Yəni bu gün hansı səmtdən bir qonağımız gəlirsə, onu Batabata, Ağbulağ kəndindəki istirahət mərkəzinə aparmaq istəyirik. Və ya yolumuz Şahbuzadırsa, mütləq bir neçə su qabı götürüb onları Batabat, Çınqıllı, Badamlı suları ilə doldurub evimizə gətirməyi düşünürük. Deməli, Şahbuzun suyu, yaşıllığı, təmiz havası bizim üçün bir dəyərə, həm də emosional dəyərə çevrilir.

Ancaq az əvvəl də vurğuladığımız kimi, təbii gözəllik olan yerdə insanların işləmək əzmi də yüksək olur. Elə bunun nəticəsidir ki, son illər ərzində bu bölgədə xeyli sayda quruculuq tədbirləri həyata keçirilib. Məlumat üçün deyim ki, Şahbuz rayonunda 1 şəhər, 1 qəsəbə, 22 kənd var. İndiyədək rayonun 17 yaşayış məntəqəsində kənd mərkəzləri tikilərək sakinlərin istifadəsinə verilib. Sevindirici haldır ki, ən ucqar dağ kəndləri olan Şada, Kükü, Kolanı, Biçənək, Keçili və adını saymadığım neçə belə kəndlərə də bu quruculuq tədbirlərindən pay düşüb. Oxucularımızı yormadan bu tədbirlərin miqyasına bir də ötən ilin simasında nəzər salsaq, düşünürəm ki, yaxşı olar. 2013-cü ildə rayonda tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 28 milyon 79 min 300 manat təşkil edib. Həmin dövrdə Şahbuz şəhərindəki hərbi hissədə yeni texniki parkın və sursat anbarının, Ağbulaq İstirahət Mərkəzinin, Qızıl Qışlaq və Kükü kəndlərində kənd mərkəzlərinin və həkim ambulatoriyaları binalarının, Güney Qışlaq və Ayrınc kəndlərində kənd mərkəzlərinin və feldşer-mama məntəqələrinin açılışı olub. Qızıl Qışlaq kəndində 110, Kükü kəndində 198, Ayrınc kəndində 110 şagird yerlik məktəb binaları tikilərək, yaxud əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Ən əsası odur ki, muxtar respublikamızın bütün bölgələrində, xüsusilə kənd yaşayış məntəqələrində istifadəyə verilən kənd mərkəzləri kəndlərimizə bütöv bir kompleks yanaşmanı özündə təcəssüm etdirir. Məsələn, ən ucqar sərhəd kəndində kənd mərkəzi yaradılıbsa, deməli, orada müvafiq sahələr – mədəniyyət, səhiyyə, rabitə və sair üçün də şərait yaradılıb. Bu şərait yaradılıbsa, deməli, ora gediş-gəliş üçün rahat yol da çəkilib. Yol çəkilibsə, deməli, ətrafında yaşıllıq sahələri də salınıb. Yəni komplekslik, sözün həqiqi mənasında, vətəndaşlara yüksək rifah, rahat yaşayış təqdim edir. Rahat həyat həm də rahat yoldan başlayır. "Heydər Əliyev ili"ndə bu sahədə görülən işlərə nəzər salsaq, bunları görə bilərik: Naxçıvan-Batabat magistral avtomobil yolundan Ayrınc kəndindən keçməklə Kükü və Güney Qışlaq kəndlərinədək olan yolun hərəkət hissəsinin eni 7,2 metr, yol yatağının eni isə 8,5 metrədək genişləndirilib, yola asfalt örtük salınıb. İki hərəkət zolağından ibarət yolun üzərində 9 körpü inşa olunub, Külüs-Keçili avtomobil yolunda isə 2 körpü istifadəyə verilib. Eləcə də Naxçıvan-Batabat magistral avtomobil yolundan Ağbulaq-Gömür kəndlərinədək uzunluğu 8 kilometr olan yola asfalt örtük salınıb. Az əvvəl rayonun 17 yaşayış məntəqəsində kənd mərkəzinin istifadəyə verildiyini qeyd etdik. Bu fakt özlüyündə həm də həmin yaşayış məntəqələrinə gediş-gəlişi təmin edən rahat yolların salındığını göstərir.

2013-cü il Şahbuz rayonunda digər sahələrin inkişafında da müsbət nəticələrlə yadda qalıb. Lakin mövzunun genişlənəcəyindən ehtiyat edib bu məlumatları oxucularla bölüşmək fikrindən uzağam. Sonda bir məqamı da vurğulamaqdan özümü saxlaya bilmirəm. Peşəm gərəyi muxtar respublikanın hansı bölgəsində oluramsa, çox şeyə diqqət edirəm. Ədalət naminə deyəcəklərimin oxucularımız tərəfindən tərif kimi qəbul edilməyəcəyinə elə ədalətin özü qədər inanıram. Ona da inanıram ki, fikirlərimizdən muxtar respublikamızın digər rayonlarında yaşayan dostlarımız da inciməz: mən Şahbuz rayonunda, eyni zamanda rayon mərkəzi olan Şahbuz şəhərində olan təmizliyi heç bir yerdə görməmişəm.

***Təmizliyin və bu təmizliyin bəxş etdiyi gözəlliklərin həssaslıqla qorunduğu bir bölgənin çox yaxın gələcəkdə əsl turizm bölgəsinə çevrilməsi şübhəsizdir. Hələ qarşıda görüləcək işlər çoxdur, qət edilən yolun hələ başlanğıcıdır. Necə deyərlər, qədim diyarda hərəkət yenilənən hədəflərə doğrudur!***

**Səbuhi HƏSƏNOV**

# Əməyin mühafizəsi diqqət mərkəzindədir

***Əmək ehtiyatları iqtisadi inkişafın mühüm amillərindən biridir. Doğrudan da, hərtərəfli formalaşmış, bütün peşə və sənət növləri üzrə yetkinləşmiş insan resursları olmasa, heç bir təbii ehtiyatdan istifadə etmək və insanların minlərlə tələbatının heç birini ödəmək mümkün olmaz. Başqa sözlə, yaradılan nə varsa, bunlar məqsədyönlü fəaliyyətin – insan əməyinin məhsuludur. Buna görə də hər bir insanın ictimai-faydalı əməyinə qayğı göstərmək, onun üçün normal, təhlükəsiz əmək şəraiti yaratmaq inkişaf edən cəmiyyətlərdə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi olub, son nəticədə, insan inkişafına xidmət edən çoxşaxəli, fasiləsiz və kompleks tədbirlər sistemidir.***

Müxtəlif əmək proseslərində çalışan işçilərin əmək qabiliyyətinin, sağlamlığının qorunub saxlanılması üzrə belə kompleks tədbirlər sistemi dövlət və vətəndaş həmrəyliyinin bir ifadəsidir. Belə tədbirlər, ilk olaraq, institusional bir fəaliyyət kimi mühüm dövlət orqanlarının birgə, koordinasiyalı işinin nəticəsində mümkün olur, əməyin mühafizəsi üzrə mövcud qanunlar, standart norma və qaydalar əsasında tənzimlənir. İnsan sağlamlığına zərərli olan, mürəkkəb maşın və mexanizmlərin tətbiq olunduğu istehsal proseslərində və tikinti meydançalarında işçilərin əmək qabiliyyətinin tam və qismən itirilməsi ilə nəticələnən bədbəxt hadisələrə yol verilməməsi üçün çox ciddi texniki təhlükəsizlik qaydaları vardır ki, bunlara əməl olunması həmin işlərin yerinə yetirilməsinə məsul olan şəxslər tərəfindən daim nəzarətdə saxlanılmalıdır. Doğrudur, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sığorta fəaliyyəti istehsalatda baş verən bədbəxt hadisələrdən icbari sığortalanma yolu ilə insanlara əmək prosesində dəymiş zərərlərə görə sığorta ödənişlərinin verilməsini həyata keçirir ki, bu da onların maddi vəziyyətinə müəyyən dərəcədə dəstək olur. Ancaq bu da bir həqiqətdir ki, heç bir maddi dəstək insan sağlamlığından qiymətli deyildir. Ona görə də kiçik bir ehtiyatsızlığın insanın özü və ətrafdakılar üçün nə dərəcədə təhlükəli nəticələr doğura biləcəyini bir an belə unutmadan görülən bütün işlər zamanı əməyin təhlükəsizliyi şərtlərinə ciddi əməl edilməsi tələb olunur.

Naxçıvan Muxtar Respublikasının müasir intibah dövrü iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı ilə xarakterizə olunur. Bir vaxtlar sırf aqrar region kimi tanınan muxtar respublikada indi artıq yüzlərlə adda və çeşiddə sənaye məhsulu istehsal olunur, yüngül və ağır sənaye, yerli xammaldan istifadəyə əsaslanan emal sənayesi inkişaf etdirilir, tikinti-quruculuq işləri paytaxt Naxçıvan şəhərindən tutmuş rayon mərkəzləri və ən ucqar kəndlərədək hər yerdə davam etdirilməkdədir. Getdikcə daha çox miqdarda yeni texnika və texnoloji avadanlıq alınıb gətirilir və bunlardan intensiv şəkildə istifadə olunur. Əvvəlki dövrlərdən fərqli olaraq, iş proseslərinin daha məhsuldar və intensiv xarakter alması, öz növbəsində, əməyin mühafizəsi məsələlərini də günün aktual məsələlərindən birinə çevirmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirləri əlaqəli şəkildə reallaşdırmaq üçün 2011 və 2012-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, bu istiqamətdə geniş müzakirələr aparılmış, aidiyyəti orqanlar qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu dövrdə aparılan məqsədyönlü işlərin nəticəsidir ki, artıq muxtar respublikada istehsalat qəzalarının sayı minimuma enmiş, insanların əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən bədbəxt hadisələr isə daha da azalmışdır. Halbuki bir vaxtlar tikintidə və bir sıra istehsal sahələrində ən adi texniki təhlükəsizlik qaydalarına əməl olunmaması, texnika ilə iş zamanı səhlənkarlığa yol verilməsi, bəzi hallarda ağır texnikanın, sözün əsl mənasında, uşaq oyuncağı hesab edərək onunla düzgün rəftar edilməməsi ucbatından törənən bədbəxt hadisələr nəticəsində insanlar həyatını və sağlamlığını itirir, ailələr başsız qalır, dövlətə külli miqdarda zərər dəyirdi. Yəqin ki, təmir bitmədən yüksək gərginlik xəttinin birləşdirilməsi, ağır texnika işləyən sahəyə kənar adamların həddən artıq yaxınlaşması, tikinti gedən ərazinin hasarlanmaması ucbatından yoldan keçən adamların üzərinə düşən cisimlər ucbatından nə qədər adamın xəsarət alması, yaxud həyatını itirməsi faktlarını yaxşı xatırlayırıq. Tikintidə işləyənin başına dəbilqə qoyması, yaxud əlinə əlcək geyməsi nə böyük məsələdir ki, bir kiçik hadisə böyük bir itki ilə nəticələnsin və sair? Ona görə də Naxçıvan Muxtar Respublikasında bu məsələlərin vacibliyi nəzərə alınaraq tikintidə və risk ehtimalı böyük olan istehsal sahələrində əməyin təhlükəsizliyinin qorunması və işçilərin texniki təhlükəsizlik şərtlərinə ciddi əməl etməsi daim diqqət mərkəzində saxlanılır, bu sahəyə məsul olan aid dövlət orqanlarına ciddi tapşırıqlar verilir. Bu il fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tikintidə keyfiyyət və təhlükəsizlik məsələlərinin ciddi nəzarətə götürülməsini, tikinti sahəsinin sanitar, yanğın, ekoloji, yaxınlıqdakı mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsini, təmir-tikinti aparılan yerlərdə xüsusi işarələrin qoyulmasına nəzarətin gücləndirilməsini bir vəzifə kimi qarşıya qoymuşdur. Muxtar respublikada insanların həyat və sağlamlığının qorunmasına göstərilən belə ciddi diqqət tikintidə və istehsal sahələrində texniki təhlükəsizlik qaydalarına əməl olunmasının bir iş normasına çevrilməsini təmin etməyə çağırır ki, bu da ümumi əmək intizamına əməl olunması deməkdir.

**Əli CABBAROV**

5 mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Muxtar respublikada bədən tərbiyəsi və idman hərtərəfli dövlət qayğısı ilə əhatə olunub

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.*

**Ulu öndər Heydər ƏLİYEV:** ***İdman, bədən tərbiyəsi gənclərimizin daha da sağlam olması üçün lazımdır. Bu, müstəqil Azərbaycanın gələcəyi üçün əsasdır. Eyni zamanda gənclərimiz fiziki cəhətdən nə qədər güclü, nə qədər hazırlıqlı və sağlam olsalar, bir o qədər yaxşı işləyəcək, öz vəzifələrinin öhdəsindən bacarıqla gələcəklər və müstəqil Azərbaycanın müstəqilliyinin təmin olunmasında layaqətlə iştirak edəcəklər.***

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə idmanın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Ölkəmiz müstəqillik qazandıqdan və ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra isə idmana qayğı daha kütləvi hal almış, bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmışdır. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə idmanın inkişafı və gənclərin bu sahəyə olan marağının artırılması istiqamətində ardıcıl tədbirlər görülmüş, idmançıların sosial vəziyyəti yaxşılaşdırılmış, veteran idmançılara təqaüdlərin verilməsinə başlanılmışdır. 1997-ci ildə cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçildikdən sonra isə Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı sürətləndirilmiş, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə beynəlxalq əlaqələrin qurulması diqqət mərkəzində saxlanılmışdır.

***"İdman həyatımızın ayrılmaz hissəsidir. İdmanın inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir",*** – deyən ölkə Prezidenti cənab İlham Əliyevin diqqəti və qayğısı ilə Azərbaycanda idman özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmizdə olimpiya hərəkatının genişlənməsi, idmanın və bədən tərbiyəsinin inkişafı, eləcə də Azərbaycanın dünyada idman ölkəsi kimi tanıdılması sahəsində mühüm tədbirlər həyata keçirilir, müasir idman infrastrukturu yaradılır. Bu gün idmana qayğı ilə yanaşılması və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi bütün bölgələri əhatə etmişdir. Ötən dövrdə ölkəmizdə 40 müasir olimpiya-idman kompleksi tikilərək istifadəyə verilmişdir. Bu sahənin qanunvericilik bazasının təkmilləşdirilməsi də daim dövlət başçısının diqqət mərkəzindədir. 2009-cu ildə qəbul edilən "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda idmanın inkişafı sahəsində fəaliyyətin təşkilati-hüquqi əsasları, eləcə də dövlət siyasətinin konkret istiqamətləri öz əksini tapmışdır.

İdman sahəsində həyata keçirilən tədbirlər ölkəmizi mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana, dünyanın idman mərkəzlərindən birinə çevirmişdir. Azərbaycanın qısa müddətdə əldə etdiyi nailiyyətlər Beynəlxalq Olimpiya Komitəsi və Avropa Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirilmiş, son illər ölkəmizdə onlarla olimpiya lisenziyalı beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir. 2015-ci ildə I Avropa Olimpiya Oyunlarının ölkəmizdə keçirilməsinin qərara alınması da Azərbaycanın dünya idman arenasında qazandığı ən böyük nailiyyətlərdən biridir.

Naxçıvan Muxtar Respublikasında da idmanın maddi-texniki bazası xeyli gücləndirilmişdir. Son 18 ildə muxtar respublikamızda idman infrastrukturunun yenidən qurulması, yeni-yeni idman obyektlərinin, olimpiya-idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqəti və qayğısı sayəsində muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 1 Stend və Sportinq Atıcılıq Mərkəzi, 1 Peyntbol meydançası, rayon mərkəzlərində şahmat və uşaq-gənclər idman məktəbləri, istifadəyə verilən tam orta məktəblərdə müasir idman zalları yaradılmış, yeni olimpiya ağırlıqqaldırma qurğuları və digər sadətipli idman avadanlıqları quraşdırılmışdır.






Muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanmış, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq döyüşü sənəti, Şahmat, Futbol, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal, Stend və Güllə Atıcılığı federasiyaları yaradılmışdır. Ötən il yenidən formalaşdırılan "Araz-Naxçıvan" Peşəkar Futbol Komandasının Azərbaycan birinci divizionu oyunlarında iştirakı təmin edilmişdir.

Muxtar respublikamızda yaradılan müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açmışdır. 2003-cü ildə Naxçıvan şəhərindəki Olimpiya-İdman Kompleksində 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, müxtəlif vaxtlarda sərbəst və yunan-Roma güləşi üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq turnirlər, "Naxçıvan Open" Beynəlxalq Şahmat festivalları, "Naxçıvan Open" İçigeki beynəlxalq turniri, o cümlədən 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı muxtar respublikada keçirilmişdir. Bütün bunlar yaradılan müasir idman infrastrukturu nəticəsində mümkün olmuşdur.

Ötən dövr ərzində idman sahəsində çalışanların əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 3 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü, 1 nəfərə Azərbaycan Respublikasının "Tərəqqi" medalı verilmiş, 2 nəfər "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi", 5 nəfər isə "Naxçıvan Muxtar Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarına layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli Sərəncamına əsasən, idman sahəsində fərqlənən iki nəfər gəncin adı "Qızıl kitab"a salınaraq onlara aylıq təqaüdün verilməsi təmin olunmuşdur.

Bu gün muxtar respublikamızda, ümumilikdə, 68 min 437 nəfər yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. 2013-cü ildə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilmiş, idmançılarımız dünya çempionatlarında 6, Avropa çempionatında 4, beynəlxalq turnirdə 6 və Azərbaycan birinciliklərində 52 medal qazanmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin formalaşmasında idmanın əhəmiyyətini qeyd edərək demişdir: ***"Ölkəmiz müharibə, muxtar respublikamız isə bununla yanaşı, həm də blokada şəraitindədir. Buna baxmayaraq, idmanın inkişafı əvvəllər olduğu kimi, bu gün də, gələcəkdə də prioritet məsələlər sırasındadır. Çünki söhbət yeni nəslin formalaşdırılmasından gedir. Sağlam nəsil sağlam cəmiyyət deməkdir. Bunlarsız heç bir dövlət inkişaf edib möhkəmlənə bilməz. Bizim prinsipimiz ölkəmizin gələcəyini təmin etməkdir. Bizim vəzifəmiz ölkəmizin gələcəyini təmin etmək üçün sağlam, mənəviyyatlı və vətənpərvər gənclər yetişdirməkdir".***

*Muxtar respublikamızda yaradılan şərait bədən tərbiyəsi və idmanın bundan sonra da davamlı inkişafına, yeni idmançılar nəslinin yetişməsinə əsas verəcək, idmançılar ölkə və beynəlxalq əhəmiyyətli yarışlarda uğurlu nəticələr qazanacaqlar.*

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Muxtar respublikada əhalinin kütləvi dispanserizasiyası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il fevralın 17-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə tapşırığı muxtar respublikamızda da uğurla icra olunur. Milli genefondumuzun sağlamlığında mühüm rol oynayacaq bu aksiyadan heç kimin kənarda qalmaması üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən xüsusi tədbirlər planı hazırlanaraq tibb müəssisələrinə göndərilib və şifahi tapşırıqlar verilib. Dispanserizasiya tədbirlərinin effektivliyinə nail olmaq üçün kütləvi informasiya vasitələrində çıxışlar edilib, rayon və şəhər tibb müəssisələrində maarifləndirici elmi-praktik seminarlar keçirilib. Fevralın 17-dən başlanan kütləvi profilaktik müayinələrdə 7 rayon Mərkəzi Xəstəxanası, 3 kənd Sahə Xəstəxanası, 90 həkim ambulatoriyası və 105 feldşer-mama məntəqəsi iştirak edir.

Naxçıvan şəhərində isə 1 poliklinikanın, 4 ixtisaslaşdırılmış dispanserin (Endokrinoloji, Dəri-zöhrəvi, Psixi Xəstəliklər və Ağciyər Xəstəlikləri dispanserləri), 5 mərkəzin (Onkoloji, Kardioloji, Stomatoloji, Doğum və Diaqnostika-Müalicə mərkəzləri), 2 xəstəxananın (Naxçıvan Muxtar Respublikası Göz və Mərkəzi Uşaq xəstəxanaları) kollektivləri tərəfindən əhalinin kütləvi müayinə tədbirləri aparılır.

Mart ayının 1-dək qeyd olunan tibb müəssisələri tərəfindən muxtar respublikada 15 min 103 vətəndaş tibbi müayinədən keçirilib. Aşkar olunan ilkin, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb edilirlər.

Ötən şənbə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində də əhalinin kütləvi müayinəsi mütəşəkkil şəkildə davam etdirilmişdir. Müasir standartlar səviyyəsində tikilib istifadəyə verilmiş və ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş bu mərkəz 2007-ci ildən muxtar respublika əhalisinə yüksək səhiyyə xidməti göstərməkdədir. Dövlət başçısının tapşırığına əsasən, əhalinin tibbi müayinədən keçirilməsi ilə bağlı hazırda mərkəzin bütün potensialından istifadə olunur. Bu humanist aksiyanın yüksək səviyyədə reallaşdırılması üçün yüksək standartlara cavab verən mərkəzdə hər gün 30-50 pasiyentin müayinəsi həyata keçirilir. Kompleks müayinə aparıldıqdan sonra hər hansı vətəndaşda xəstəlik aşkar olunursa, o, dərhal qeydiyyata alınmaqla müvafiq müalicəyə cəlb edilir.

Naxçıvan şəhərindən müayinəyə gələn yaşlı nəslin nümayəndəsi, pasiyent Eldar Həsənov bildirdi ki, yaxın günlərdə bu mərkəzdə uğurlu cərrahi əməliyyat olunmuşdur: "Sağ olsun həkimlərimiz. Amma bütün bu işlərin bir böyük səbəbkarı var, o da bizim hörmətli Prezidentimiz cənab İlham Əliyevdir. Allah ondan razı olsun, xalqın qayğısına qalır, onun sağlamlığı haqqında düşünür. Əhalinin kütləvi şəkildə müayinəsi ilə bağlı bu aksiyanın təşkil olunması haqqında bilavasitə Prezidentin tapşırıq verməsi bir daha sübut edir ki, dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının yanındadır və onu firavan, sağlam görmək istəyir".

Naxçıvan Muxtar respublikanın digər səhiyyə müəssisələrində də əhalinin kütləvi müayinələri uğurla davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## İxtisasartırma kurslarına başlanılıb

21 fevral 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirədə tikinti işçilərinin əmək şəraitinin və iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi qaydalarına uyğun olmasına, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin edilməsinə, işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq əmək müqaviləsinin bağlanmasına nəzarəti gücləndirmək, həmçinin əməyin mühafizəsi üzrə ixtisasartırma kurslarının təşkil olunması barədə tapşırıqlar verilib. Verilmiş tapşırıqların icrası ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində tikintidə əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına riayət olunması mövzusunda ixtisasartırma kurslarına başlanılıb.



Martın 3-dən keçilməsinə başlanılan ilk ixtisasartırma kursuna Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rayon idarələrinin, "Gəmiqaya Şirkəti", "Dizayn İnşaat", "Cahan İnşaat" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Əcəmi" Açıq Səhmdar Cəmiyyətinin, "Altay" LTD-nin və Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin əməyin mühafizəsi üzrə 14 mütəxəssisi cəlb edilib.

7 gün davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən tikintidə iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi normaları, qaydaları və prinsiplərinə uyğunlaşdırılması, əmək müqavilələrinin bağlanması, fərdi və kollektiv mühafizə vasitələrindən düzgün istifadə olunması qaydaları, baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin bağlanması və sair mövzular tədris olunacaqdır. İxtisasartırma kursunda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Səhiyyə Nazirliyinin nümayəndələri tərəfindən də müvafiq olaraq tikinti obyektlərində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər haqda məlumat veriləcəkdir.

Yekunda ixtisasartırma kursunda iştirak edənlərin bu sahədə bilikləri yoxlanılacaq.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

# Müəllim axtarıcı və yaradıcı olarsa...

Hələ vaxtilə Marağalı Əvhədi “Cami-cəm” adlı əsərində yazırdı ki:

*Oğlunun olmasa ağlı, kamalı,*
*Sən öldün, neyləyir dövləti-malı.*

Atalar sözlərində isə xatırladılır ki, “Ağıl qızıldan qiymətlidir”, “Ağıllı baş hər şeydən mənfəət götürər”, “Ağıl başda ikən evin abadan”, “Ağıl yaşda deyil, başdadır”, “Ağıllı düşmən nadan dostdan yaxşıdır”, “Ağıllı kamal axtarar, cahil mal”, “Ağlınla gör, qəlbinlə duy” və sair. Azərbaycan xalq pedaqogikasında deyildiyi kimi, baş bədənin tacıdır. Ağıllı, düşüncəli, kamallı insan olmaq üçün başı biliklərlə zinətləndirmək lazımdır. Başı zinətləndirməkdən ötrü təhsilin bütün növlərindən, o cümlədən pedaqoji prosesin bütün vəzifə (təhsilləndirmə, tərbiyələndirmə, psixoloji inkişafa nail olma) və mərhələlərindən (qavrama, anlama, möhkəmlətmə, hesaba alma) metodik ustalıqla, eyni zamanda bir-birilə vəhdətdə istifadə etmək lazımdır.

Müdrik ata-babalarımız ağılın və onun əks qütbü olan ağılsızlığın mahiyyət və məzmun dəyərini aşağıdakı kimi vurğulayıblar:

*Bu dünyada maldan-puldan*
*Bir ağıllı baş yaxşıdır.*
*Anlamayan bir kəllədən*
*Bircə qara daş yaxşıdır.*

Təlim prosesində sağlam düşüncənin faydası, dəyəri xeyli böyükdür. Şagirdlərin mənəvi dünyasında sağlam düşüncənin faydasını, dəyərini Nizami Gəncəvi aşağıdakı misra ilə çox gözəl açıqlayır:

*Düşüncəsi, ağlı sağlam olan kəs*
*Lazımsız sözləri danışa bilməz.*

Bu mənada şagirdlərin əqli inkişafının düzgün, məqsədyönlü formalaşdırılmasında müəllimlərin üzərinə məsul və şərəfli vəzifələr düşür. Müasir dövrümüz elmi-texniki inkişaf dövrüdür. Bu dövrdə müəllim texniki təlim vasitələrindən, kompüter texnikasından, yeni interaktiv təlim metodlarından metodik ustalıqla istifadə etmək səriştəsinə sahib olmalıdır.

Maarifçilik hərəkatında xüsusi xidmətləri olan M.F.Axundzadə, M.T.Sidqi, F.Köçərli, Ü.Hacıbəyli, H.Cavid, J.J.Russo, V.Franklin və başqaları insan həyatında düşüncənin məna dəyərini yüksək qiymətləndirərək mənalandırmışlar. V.Franklin yazır ki, insan iki dəqiqə havasız, iki həftə susuz, üç həftə yeməksiz, bütün ömrü boyu səfalət içində yaşaya bilər, amma bir an belə, düşünmədən yaşaya bilməz.

Şagirdləri düşündürmək, düşündürərək öyrətmək, onları problemli məsələlərlə qarşılaşdırmaq, axtarıcı, yaradıcı fəaliyyətə emosional formada səfərbər etmək müəllim, tərbiyəçi, valideyn istəyinin, arzusunun, fəaliyyətinin, məqsədinin əsasını təşkil etməlidir. Düşündürərək öyrətmək, düşünərək öyrənmək bilik, bacarıq, vərdişlərə yiyələnməyin, mənən zənginləşməyin, habelə psixoloji inkişafa nail olmağın səmərəli və optimal yoludur.

Sağlam düşüncə hər bir fərdin insani keyfiyyətlərə yiyələnməsində çox böyük didaktik dəyərə malikdir. Müəllim üçün düşüncəlilik daha çox vacibdir. Bunun üçün kamilləşərək kamilləşdirmək, təkmilləşərək təkmilləşdirmək tərbiyəedənin, yəni müəllimin fəaliyyətində üstünlük təşkil etməlidir. Dünya gör-götür dünyası olduğundan şagirdlər düşüncəlilik, müdriklik keyfiyyətləri baxımından münbit olan, sayılıb-seçilən əqli, əxlaqi dəyərlərə malik kamil şəxsiyyətlərin ibrətamiz, nəsihətamiz nümunələrini görür, müşahidə edir, duyaraq əxlaqi-mənəvi dəyərlər baxımından daha da püxtələşməyə, zənginləşməyə can atırlar.

Uşaqlarda düşüncəlilik keyfiyyətlərinin formalaşmasında, inkişaf etdirilməsində pedaqoji fəaliyyətin imkanları xeyli böyükdür. Pedaqoji prosesdə şagirdləri düşündürücü suallarla qarşılaşdırmaq sinifdə fəallığı artırır, müstəqilliyə zəmin yaradır. Bunun üçün pedaqoji qanunauyğunluqlara və onlardan törəmə olan əsas ideya, tələb rolunu oynayan pedaqoji prinsiplərə düzgün riayət edilməlidir. Düşüncəli şəkildə həmin prinsiplərdən ölçülü-biçili şəkildə istifadə aparılan təlim-tərbiyə işinin səmərə və keyfiyyətini yüksəltmiş olur. Müəllim şagirdləri düşündürmək, tədris olunan mövzunu şüurlu şəkildə mənimsətmək üçün vaxtaşırı problemli şərh metodundan ustalıqla, xüsusi məharətlə istifadə etməlidir.

Şagirdlərin dərsdə sağlam düşüncəyə əsaslanaraq daha fəal iştirakını təmin etmək üçün interaktiv təlim üsullarından istifadə etmək həm vacib, həm də çox effektlidir. “İnteraktiv” sözünün mənası “daha fəal” deməkdir. Şagird və tələbələrin pedaqoji prosesdə daha fəal düşünərək iştirak etməsinə, sinifdə əli işsiz, başı fikirsiz şagirdin olmamasına nail olmaq üçün düşündürərək öyrətməyin, düşünərək öyrənməyin didaktik dəyəri xüsusilə böyükdür. Bu cəhətdən şagirdlərin düşünərək, əqli nəticələrə gələrək axtarıcı fəaliyyət zəminində proqram materiallarına yiyələndirilməsində interaktiv təlim üsullarından ölçülü-biçili şəkildə istifadə vacibdir. Bu cür aparılan təlim təhsil işinin səmərə və keyfiyyətini xeyli gücləndirir. İnteraktiv dərsin təşkili sinifdəki bütün şagirdlərin müstəqil düşünmələrinə və fəaliyyət göstərmələrinə maksimum şərait yaradılmasını tələb edir. Belə dərslər tədris materialının şüurlu mənimsənilməsinə, şagirdlərdə psixoloji inkişafa (diqqətin, iradənin, təsəvvürün, nitqin və sair), habelə faydalı mənəvi keyfiyyətlərin formalaşmasına təkan verir.

Bəli, düşüncənin təlim-tərbiyə dəyəri böyükdür. Böyük filosof Sokratın sözləri ilə desək: “Düşünülərək görülən hər bir iş xeyirlə bitir”. Pedaqoji prosesdə sağlam düşüncənin bərqərar edilməsində şagirdlərdə formalaşdırılan idrak motivlərinin də rolu, dəyəri xeyli böyükdür. Müəllim bilməlidir ki, idrak motivləri sağlam düşüncənin mənbəyidir.

Müəllim şagirdlərə düşünərək, fikirləşərək öyrənməyin mexaniki öyrənməkdən fərqini açıqlamaqla şüurlu öyrənməyə həvəs və səyi artırmağa cidd-cəhdlə çalışmalıdır. Onları düşündürərəkdən başa salmalıdır ki, şüurlu öyrənmə unutqanlığın qarşısını alır, qazanılan bilik, bacarıq və vərdişlər hafizədə dərin izlər buraxır. Çünki şagird öyrədiləni dərindən anlayaraq, əsaslı şəkildə düşünərək öyrəndikdə həmin materialı uzun müddət düzgün və möhkəm yadda saxlayır. Psixoloji tədqiqatlar göstərmişdir ki, mənanı anlamadan, başa düşmədən materialı mexaniki öyrənmək üçün çox vaxt tələb olunur, bu cür öyrənilən material tez unudulur. Hələ vaxtilə alman pedaqoqu İohan Henrix Pestalotsi yazırdı: “Adi müəllim həqiqəti şagirdlərə çatdırır. Əsl müəllim həqiqəti şagirdlərə tapdırır”.

Təlim prosesində şagirdlər təkcə dinləyiciyə çevrilməməlidir; müəllimlə, bir növ, əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidirlər. Bunun üçün müəllim şagirdləri təlimatlandırmalıdır ki, onlar üçün aydın olmayan, anlaşılmaz məsələləri müəllimdən soruşub öyrənməyə çalışsınlar. Mexaniki öyrənmək, mətni əzbərləyərək öyrənmək çoxlu vaxt almaqla yanaşı, həm də hafizədən tez bir zamanda silinir. Düşünərək, başa düşərək, şüurlu şəkildə öyrənilən bilik isə hafizədə uzun müddət qalır. Bu cür öyrənmə şagirdlərdə də öz-özlüyündə müqayisə bacarığı formalaşdırır ki, bu da gələcək tədqiqatçının ilk rüşeymidir. Ən düzgün və səmərəli yol fikirləşə-fikirləşə öyrənməkdir. Məhz buna görə də L.N.Tolstoy haqlı olaraq yazmışdır ki, bilik yalnız o zaman bilikdir ki, o təkcə hafizə ilə deyil, həm də adamın öz fikirlərinin gücü ilə qazanılmış olsun.

Müəllim mənimsətdiyi bilikləri başa salmaqla kifayətlənməməlidir; qazanılmış bilik cari, mövzudan-mövzuya, bəhsdən-bəhsə təkrarlanmalıdır. Çox haqlı olaraq xatırladırlar ki, “təkrar biliyin anasıdır”. Biliyin möhkəmliyini, uzun müddətliliyini təmin etmək üçün həmin bilik lazımi məqamlarda təkrarlanmalıdır. Təkrarın da özünəməxsus qayda-qanunları var. Təkrarın öyrənmənin şərtinə çevrilməsi üçün bir sıra şərtlərə əməl olunmalıdır. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, öyrənmənin keyfiyyəti təkrarın miqdarından deyil, düzgün təşkilindən, xarakterindən asılıdır. Adətən, təkrarlar düşünülmüş xarakter daşıdıqda, öyrənmənin, mənimsəmənin səmərəliliyi təmin edilə bilir. Əksinə, kor-koranə, materialı kifayət qədər anlamadan təkrar etmək olsa-olsa, mexaniki öyrənmə ilə nəticələnir.

Təlimdə şüurluluğun təminində şagirdlərin bilik və anlayış səviyyələrinə, fərdi psixoloji xüsusiyyətlərinə uyğun tədris olunan mövzu ilə bağlı problemli vəziyyətin yaradılması mühüm əhəmiyyət kəsb edir. Tədris olunan mövzu ilə bağlı şagirdlərin müəyyən düşündürücü suallarla qarşılaşdırılması onların təfəkkür fəaliyyətini hərəkətə gətirir. Şagirdlərin axtarıcı təfəkkür fəaliyyətinə səfərbər edilməsi müəllimin metodik ustalığından, pedaqoji mərifətindən, öz fənnini, onun tədrisi metodikasını dərindən bilməsindən, şagirdlərlə səmimi ünsiyyətə girmək mədəniyyətindən, peşəkarlıq və mənəvi dünyası ilə hamıya ideal nümunə ola bilməsindən çox asılıdır. Müəllimdə sadalanan bu keyfiyyətlərin mövcudluğu onun öyrədilən mövzu ilə bağlı şagirdlərin düşündürücü təfəkkür fəaliyyəti işinə səfərbər olmaq mədəniyyətini yüksəldir. Təfəkkür yeninin axtarılması və kəşfidir. Ona görə də dərsdə problemli situasiyanın yaradılması zəruridir. Problemli situasiya yaradıldıqda şagird axtarıcı olur, onun əqli inkişafı üçün şərait yaranır. Dərsdə düşünmənin, axtarıcı fəaliyyətin təmini bilavasitə fənni tədris edən müəllimin pedaqoji fəaliyyət vəzifəsi olmalıdır. Dərslərin belə keçilməsi şagird təfəkkürünün inkişaf etməsinə stimul olur. Elə bu cəhətlərdən də hər bir müəllim mexaniki öyrənmənin qarşısını almaq, tədris olunan mövzunu şüurlu şəkildə şagirdlərə mənimsətmək üçün onların fasilələrə yol vermədən təfəkkürlərinin inkişaf etdirilməsi qayğısına qalmalıdır. Bunun üçün hər bir dərsdə şagirdləri düşünərək, mühakimələr yürüdərək axtarıcı fəaliyyətə cəlb etmək səriştəliliyi müəllim fəaliyyətində ən optimal üsullardan birinə çevrilməlidir.

Şagirdlərdə düşünərək, əqli mühakimələr yürüdərək öyrənməyə həvəs motivlərini qüvvətləndirmək üçün onları həvəsləndirmək, mütəfəkkirlərin fikirləri ilə bəhrələndirmək dəyərli, optimal təsir vasitələrindən biridir. Şagirdlərə anlatmaq, başa salmaq lazımdır ki, güc çox şeyə qalib gəlir, lakin ağıl, bilik isə hər şeyə, eləcə də gücə qalib gəlir.

*On adam öldürsə bir qılınc əgər,*
*Düşüncə ordunu salar dərbədər.*

**(N.Gəncəvi)**

***Yekun olaraq qeyd edək ki, təlimin bütün təşkilat formalarında uşaqlara bilik, bacarıq və vərdişlər aşılamaq, onların əqli qüvvələrini səfərbərliyə alıb düşünülmüş, planlı, mütəşəkkil və məqsədyönlü şəkildə inkişaf etdirmək üçün hər bir müəllim təlim prosesində münbit zəmin, əlverişli mühit yaratmalıdır. Bu imkanları gerçəkləşdirmək işində müəllimin düşüncəli fəaliyyət göstərməsinin rolu, dəyəri xeyli böyükdür. Müəllim ümumi hazırlığı, pedaqoji mərifəti, fasilələrə yol vermədən həm elmi, həm də öyrətmə metodikası baxımından axtarıcı və yaradıcı olmalıdır.***

**Kamal CAMALOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

## Layihə təsirinin qiymətləndirilməsi mövzusunda növbəti təlim kursu

***Naxçıvan Dövlət Universitetində Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi “Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi” layihəsi çərçivəsində növbəti təlim kursuna start verilib.***



Təlim kursunun açılış iclasında çıxış edən universitetin rektoru, professor Saleh Məhərrəmov dövlət strukturlarını və nazirliklərin əməkdaşlarını əhatə edən təlim kurslarının kadr hazırlığı baxımından mühüm əhəmiyyət daşıdığını deyib. Vurğulanıb ki, belə təlim kurslarının təşkili muxtar respublikada dövlət idarəçiliyi sahəsində milli kadr potensialının artırılmasına, mütəxəssis hazırlığına göstərilən dövlət qayğısının təzahürüdür.

Sonra ekspert-təlimçi Murad Tahirov çıxış edərək “Layihə təsirinin qiymətləndirilməsi” mövzusunda keçiriləcək təlim kursunun iştirakçılara layihənin tərtib olunmasından başlayaraq onun icrasına qədər layihə təsirinin qiymətləndirilməsi prosesini mənimsətmək, eləcə də bu istiqamət üzrə başlıca üsul və vasitələri aşılamaqdan ibarət olduğunu bildirib. Ekspert-təlimçi bu sahədə mövcud dünya təcrübəsi, təlim kursunda bəhs olunacaq mövzular barədə də məlumat verib.

Qeyd edək ki, “Layihə təsirinin qiymətləndirilməsi” mövzusunda 10 gün keçiləcək təlim kursunun sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.

**Mina QASIMOVA**

## 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə yarışlar keçirilib

Sədərək rayonunun Sədərək kəndindəki 1 nömrəli tam orta məktəbin idman zalında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası ilə birgə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə voleybol üzrə yoldaşlıq görüşü keçirib.

Sədərək rayon voleybolçuları ilə Şərur rayon təmsilçiləri arasında keçirilən yoldaşlıq görüşü 2:0 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb. Komandalara Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının hədiyyələri verilib.

Əlamətdar gün münasibətilə daha bir yarış Culfa rayon Bənəniyar kənd tam orta məktəbinin idman zalında olub. Burada 1996-2001-ci illər təvəllüdlü idmançılar arasında karate-do üzrə rayon birinciliyi keçirilib. Culfa Rayon Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının təşkilatçılığı ilə keçirilən birincilikdə 50-yə yaxın idmançı iştirak edib.

Qaliblərə diplomlar verilib.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


## 2001 nömrəli hərbi hissə

*şəxsi heyətin 6 (altı) aylıq ərzaq məhsullarına olan tələbatı üçün açıq təkliflər sorğusu elan edir*

**Təkliflər sorğusu 4 (dörd) lot üzrə keçirilir**

*Lot-1: Ət 1-ci növ – 24000 kiloqram*
*Lot-2: Ət konservi – 30000 kiloqram*
*Lot-3: Kartof – 12000 kiloqram*
*Lot-4: Un 1-ci növ – 12000 kiloqram*

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflər sorğusunu möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləği iştirak haqqında göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş təkliflər sorğusunun “Əsas şərtlər” toplusu Naxçıvan şəhərində yerləşən 2001 nömrəli hərbi hissənin “Ərzaq və yem” bölməsindən **(əlaqələndirici şəxs: Fariz Muradov, tel.: 055-381-26-66)** ala bilərlər.

*Lot-1 – 100 manat*
*Lot-2 – 100 manat*
*Lot-3 – 100 manat*
*Lot-4 – 100 manat*

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
*Təşkilat: Naxçıvan Şəhər Maliyyə Şöbəsi*
*Hesab: 320205000000100*
*VÖEN: 0200004671*
2001 nömrəli hərbi hissənin büdcədənkənar xüsusi hesabına.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Sənədlər 21 aprel 2014-cü il tarixdə saat 13[00]-dək qəbul olunur. Təklif zərfləri 24 aprel 2014-cü il tarixdə saat 11[00]-də yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***2001 nömrəli hərbi hissənin tender komissiyası***


### İtmişdir

Hənifəyev Əhməd Nurəli oğlunun adına olan zabitin MN-0031602 seriya nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Canbaxış Kamran oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Qafarova Sevgili Qulu qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin müəllimi Mədət Səfərova, bacısı

**ƏFİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin baş həkimi Abasət Hüseynəliyev Nigar Rüstəmovaya, əzizi

**RÜSTƏMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 231